**«DÖVLƏT QEYDİYYATINA ALINMIŞDIR».** **«TƏSDİQ EDİLMİŞDİR»**

Azərbaycan Respublikasının
Ədliyyə Nazirliyində

QEYDİYYAT №: 1105-04-1451

"31" "05" 2005-ci il.

Hüquqi şəxslərin dövlət
qeydiyyatı idarəsinin rəisi:

FAZİL MƏMMƏDOV

**TƏSİSÇİLƏR:**

1. Mirəli Əsəd oğlu Hüseynov
2. Rüstəm Məhəmməd oğlu Zülfüqarov
3. Rauf Bəşir oğlu Həsənov

# «H Ü Q U Q  V Ə  İ N K İ Ş A F»ictimai birliyinin N İ Z A M N A M Ə S İ

## I. Ümumi müddəalar

I.1. "HÜQUQ VƏ İNKİŞAF» İCTİMAİ BİRLİYİ (bundan sonra «Birlik» adlandırılacaq) «Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq bu Nizamnamədə müəyyən edilmiş məqsədlərlə ümumi maraqlar əsasında birləşmiş bir neçə fiziki şəxsin təşəbbüsü ilə yaradılmış, könüllü, özünüidarəedən, öz fəaliyyətinin əsas məqsədi kimi gəlir əldə etməyi nəzərdə tutumayan ictimai birlikdir.

I.2. Birlik öz fəaliyyətini qanunvericiliyə və bu Nizamnaməyə uyğun olaraq Azərbaycan Respublikasının bütün ərazisində həyata keçirir.

1.3. Birlik dövlət qeydiyyatına alındıqdan sonra hüquqi şəxs statusuna malik olur.

1.4. Birlik öz adından müqavilələr bağlaya, əmlak və şəxsi qeyri-əmlak hüquqları əldə edə, vəzifələr daşıya, məhkəmədə iddiaçı və cavabdeh kimi çıxış edə bilər.

1.5. Birliyin Azərbaycan Respublikasının qanunvericiliyi əsasında və bu Nizamnamə ilə nəzərdə tutulmuş məqsəd vəzifələrini yerinə yetirmək üçün əmlakı vardır.

1.6. Birlik Bakı şəhəri, 8-ci mikrorayon ev 68, mənzil 45 ünvanda yerləşir.

## II. Birliyin fəaliyyətinin əsas məqsədi və predmeti

II.1 Birliyin əsas məqsədi Azərbaycanda mülki cəmiyyətin və demokratik institutların inkişafına, habelə hüquqi islahatların aparılmasına yardım göstərməkdən ibarətdir.

II.2 Birliyin fəaliyyət predmetinə, əsasən aşağıdakılar daxildir:

II. 2.1. Demokratik dəyərlərin öyrənilməsi və təbliğ edilməsi;

II.2.2. Demokratik təsisatların, o cümlədən yerli özünüidarə institutlarının inkişafına yardım göstərilməsi;

II.2.3. Azərbaycan Respublikasının qanunvericilik sisteminin təkmilləşdirilməsi məqsədi ilə təkliflərin hazırlanması;

II.2.4. Demokratik institutlar və dəyərlərlə bağlı beynəlxalq (xarici) təcrübənin öyrənilməsi, təhlil edilməsi, sistemləşdirilməsi və təbliğ edilməsi;

II.2.5. Əhalinin hüquqi biliklərinin artırılması məqsədi ilə maarifçilik işinin aparılması;

II.2.6. Hüquqi və demokratik islahatların aparılmasına yardım göstərilməsi;

II.2.7. Konstitusion hüquq və azadlıqlarla bağlı müvafiq tədirlərin həyata keçirilmsəi;

II. 3. Birlik Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə qadağan edilməyən digər fəaliyyətlə də məşğul ola bilər.

## III. Birliyin hüquq və vəzifələri

III.1. Birlik qarşısına qoyduğu məqsədləri həyata keçirmək üçün aşağıdakı hüquq və vəzifələrə malikdir:

III.1.1. Məqsədləri və fəaliyyəti barədə məlumatları sərbəst yayır;

III.1.2. Müvafiq dövlət orqanları qarşısında proqram, konsepsiya, qanun layihələri və digər təkliflərlə çıxış edir;

III.1.3. Konfranslar, seminarlar, dəyirmi masalar, tədris və metodoloji yardımlar və s. tədbirlər təşkil edir;

III.1.4. Sosioloji sorğular keçirir;

III.1.5. Müxtəlif məsələlərlə bağlı bülletenlər buraxır, elmi-kütləvi ədəbiyyat və müvafiq materiallar çap etdirir və yaymnı həyata keçirir;

III.1.6. Müqavilə və sazişlər bağlayır, sifarişlər verir;
III.1.7. Müvafiq instansiyalar qarşısında təkliflərlə çıxış edir;
III.1.8. Qanunvericiliyə uyğun olaraq beynəlxalq əlaqələr yaradır, beynəlxalq ictimai birliklərə daxil olur.
III.2. Birlik dövlət orqanlarının və vəzifəli şəxslərin fəaliyyətinə qanunsuz müdaxilə etmir, Azərbaycan Respublikası qanunvericiliyinə zidd hərəkətlərə yol vermir və bu Nizamnamənin tələblərindən kənara çıxmır. Birlik siyasi partiyalara maliyyə və başqa yardım göstərmir.

## IV. Birliyin iştirakçıları

IV.1. Birliyin iştirakçıları təsisçilər, üzvlər və köməkçilər ola bilər. Birliyin iştirakçılarının hüquqi vəziyyəti «Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında» Azərbaycan Respublikasının Qanunu və digər müvafiq normativ-hüquqi aktlara uyğun olaraq tənzimlənir.
IV.2. Birliyin Nizamnaməsini qəbul edən hər bir fiziki və hüquqi şəxs (dövlət hakimiyyəti və yerli özünüidarə orqanları istisna olmaqla) Birliyə üzv ola bilər.
IV.3. Birlikdə üzvlük üçün Mərkəzin İdarə Heyətinə yazılı ərizə ilə müraciət edilir. Ərizəyə İdarə Heyətinin iclasında baxılır və müvafiq qərar qəbul edilir.
IV.4. Birliyin üzvləri bərabər hüquqludurlar.
IV.5. Birlik üzvlərinin aşağıdakı hüquqları vardır:
IV.5. 1. Birliyin seçkili orqanlarına seçmək və seçilmək;
IV.5. 2. Qanunvericiliyə və bu Nizamnaməyə uyğun olaraq Birliyin idarə olunmasında iştirak etmək;
IV.5.3. Birliyin fəaliyyətində iştirak etmək, təkliflərlə çıxış etmək;
IV.5. 4. Birliyin rəhbər orqanlarının fəaliyyətinə nəzarət etmək, onun seçkili orqanlarının və vəzifəli şəxslərinin fəaliyyəti barədə məlumat almaq, əsaslar olduqda bu orqanların və vəzifəli şəxslərin fəaliyyətini tənqid etmək;
IV.5. 6. Özünün hüquq və vəzifələri ilə bağlı hər hansı məsələnin müzakirəsində şəxsən iştirak etmək, izahat vermək və Birliyin müvafiq orqanına və məhkəməyə şikayət etmək.
IV. 6. Birliyin üzvü yalnız Birliyin Ümumi Yığıncağı, İdarə Heyəti və Sədri tərəfindən səlahiyyət verildikdə Birliyi təmsil edə və onun adından çıxış edə bilər.
IV.7. Birlik üzvləri aşağıdakı vəzifələri daşıyırlar:
IV.7.1. Birliyin Nizamnamə tələblərinə riayət etmək;
IV.7.2. Birliyin seçkili orqanlarının qərarlarını yerinə yetirmək;
IV.7.3. Birliyin nüfuzuna xələl gətirəcək hərəkətlərə yol verməmək.
IV.8. Birliyin üzvlüyünə aşağıdakı hallarda xitam verilir:
IV.8.1. Birliyin fəaliyyətinə xitam verildikdə;
IV.8.2. Birlik üzvlüyündən könüllü çıxdıqda;
IV.8. 3. Birliyin üzvlüyündən çıxarıldıqda.
IV.9. Birlik üzvü Birlikdən könüllü çıxdıqda Birliyin İdarə Heyətinə bu barədə yazılı ərizə ilə müraciət edir. Ərizəyə İdarə Heyətində baxılır və müvafiq qərar qəbul edilir.
IV.10. Birliyin Nizamnaməsini pozan üzvlər barəsində, pozuntunun xarakterinə uyğun olaraq, «xəbərdarlıq», «töhmət», və «Birliyin üzvlüyündən xaric etmə» kimi intizam tədbirləri görülür. İntizam tədbiri Birliyin Nəzarət Təftiş Qrupunun rəyi əsasında Ümumi Yığıncaq tərəfindən tətbiq edilir.

IV.11. Birliyin üzvü barədə tətbiq edilən intizam tədbirlərindən qanunvericiliyə müvafiq olaraq şikayət verilə bilər.
IV.12. Birlik öz üzvlərinin hüquqlarını və qanuni mənafelərini bütün instansiyalarda müdafiə edir.
IV.13. Birlikdə üzvlük haqqı yoxdur.

## V. Birliyin idarə olunması

V.1 Birliyin idarəetmə orqanları aşağıdakılardır:
V.1.1. Birlik üzvlərinin Ümumi Yığıncağı
V.1.2. Birliyin Nəzarət - Təftiş Qrupu
V.1.3. Birliyin İdarə Heyəti
V.1.4. Birliyin Sədri
V.2. Ümumi Yığıncaq Birliyin ali orqanıdır. Ümumi Yığıncağın iclasları zəruri hallarda, lakin ildə bir dəfədən az olmayaraq keçirilir. Ümumi Yığıncaq Birliyin icra orqanının, təsisçilərdən birinin və ya üzvlərinin üçdə bir hissəsinin təşəbbüsü ilə Birliyin Sədri tərəfindən çağırılır.
V.3.Ümumi Yığıncağın səlahiyyətlərinə, əsasən aşağıdakı məsələlər daxildir:
V.3.1. Birliyin Nizamnaməsinin qəbulu və ona dəyişiklər edilməsi;
V.3.2. Birliyin əmlakının formalaşma və istifadə prinsiplərinin müəyyən edilməsi;
V.3.3. Birliyin icra orqanlarının yaradılması və onların səlahiyyətlərinin vaxtından əvvəl dayandırılması;
V.3.4. Birliyin başqa təşkilatlarda iştirakı;
V.3.5. Birliyin fəaliyyətinin əsas istiqamətlərinin müəyyən edilməsi;
V.3.6. Birliyin Sədrinin, İdarə Heyətinin və Nəzarət - Təftiş Qrupunun seçilməsi və illik hesabatların təsdiq edilməsi;
V.3.7. Birliyin yenidən təşkili və ləğv edilməsi;
V.3.8. Bu Nizamnamədə nəzərdə tutulan digər səlahiyyətlərin həyata keçirilməsi.
V.4. Birliyin təsisçilərinə və üzvlərinə Ümumi Yığıncağın yeri və vaxtı haqqında ən azı 2 həftə əvvəl məlumat verilir. Ümumi Yığıncaq yalnız Birlik üzvlərinin yarısından çoxu iştirak etdikdə Nizamnəmyə dəyişikliklər edə bilər. Ümumi Yığıncağın qərarı yığıncaqda iştirak edən üzvlərin səs çoxluğu ilə qəbul edilir.
V.5. Ümumi Yığıncaqda yazılı protokol aparılır. Protokol yığıncağın sədri və katibi tərəfindən imzalanır, yığıncağın protokolu lazım gəldikdə Birliyin bütün üzvlərinə paylanır.
V.6. Birliyin Nəzarət - Təftiş Qrupu Birliyin Nizamnaməsinə əməl olunmasına, maliyyə vəsaitinin Birliyin məqsəd vəzifələrinə uyğun xərcləməsinə nəzarət edir. Nəzarət - Təftiş Qrupunun fəaliyyəti Ümumi Yığıncaq tərəfindən qəbul edilən xüsusi Əsasnamə ilə tənzimlənir.
V.7. Birliyin İdarə Heyəti Birliyin cari fəaliyyətinə rəhbərliyi həyata keçirir və aşağıdakı səlahiyyətlərə malikdir:
V.7.1. Birliyin əsas vəsaitləri ilə bağlı qərarlar qəbul edir;
V.7.2. Birliyə üzv qəbul edilməsi və üzvlükdən azad edilməsi məsələsinə baxır;
V.7.3. Birliyin cari fəaliyyəti ilə bağlı zəruri məsələləri müzakirə edir.
V.7.4. Birliyin filial və nümayəndələrini açır, onun rəhbərlərini təyin edir;
V.7.5. Ümumi Yığıncağın müstəsna səlahiyyətlərinə aid olmayan digər səlahiyyətləri həyata keçirir.

V.8. Birliyin İdarə Heyətinin iclasları zəruri olduqda, lakin üç ayda bir dəfədən az olmayaraq keçirilir. İdarə Heyətinin iclaslarına sədrlik Birliyin Sədri tərəfindən həyata keçirilir və o, vəzifəsinə görə İdarə Heyətinin üzvü hesab edilir.
V.9.Birliyin Sədri:
V.9.1. Birliyin cari fəaliyyətini təşkil edir;
V.9.2. Birliyin iş planın qəbul edir və ounun icrasını təmin edir;
V.9.3. Birliyin icra aparatının üzvlərini təyin edir, onun işini təşkil edir;
V.9.4. Fəaliyyət istiqamətlərinə uyğun olaraq Birliyin ekspert qruplarını və digər strukturlarını yaradır, onların işini təşkil edir;
V.9.5. Öz səlahiyyətləri daxilində müvafiq aktlar qəbul edir;
V.9.6. Birliyin dövriyyə vəsaiti və pul vəsaiti üzərində sərəncam verir;
V.9.7. Birliyi təmsil edir, onun adından müqavilələr və sazişlər bağlayır;
V.9.8.Ümumi Yığıncağın və İdarə Heyətinin səlahiyyətlərinə aid olmayan digər məsələləri həll edir.
V.10. Birliyin İdarə Heyəti, Sədri və Nəzarət -Təftiş Qrupu Ümumi Yığıncaq tərəfindən bir il müddətinə seçilir.
V.11. Birliyin Ümumi Yığıncağı, İdarə Heyəti və Nəzarət Təftiş Qrupunun iclasları nümayəndələrin yarısından çoxu iştirak etdikdə səlahiyyətlidir və qərarlar iştirak edənlərin sadə səs çoxluğu ilə qəbul edilir. Birliyin İdarə Heyəti və Nəzarət – Təftiş Qrupu üzvlərinin say tərkibi Ümumi Yığıncaq tərəfindən müəyyən edilir. İdarə Heyətinin və Nəzarət Təftiş Qrupunun iclaslarının vaxtı haqqında müvafiq orqanların üzvlərinə ən azı 2 həftə əvvəl məlumat verilir.

## VI. Birliyin filial və nümayəndəlikləri

VI.1. Birlik Azərbaycan Respublikasının ərazisində və xaricdə filiallarını yarada, nümayəndəliklərini aça bilər.
VI.2. Birliyin filialı onun olduğu yerdən kənarda təşkil edilir və fəaliyyətinin bir hissəsini həyata keçirir.
VI.3. Birliyin nümayəndəliyi onun olduğu yerdən kənarda təşkil edilir, Birliyin maraqlarını təmsil edir və həmin maraqların müdafiəsini həyata keçirir.
VI.4. Birliyin filial və nümayəndəliyi hüquqi şəxs deyil, Birliyin əmlakından pay alır və Birliyin Ümumi Yığıncağı tərəfindən təsdiq edilən Əsasnaməyə əsasən fəaliyyət göstərir. Filial və nümayəndəliyin fəaliyyətinə görə Birlik məsuliyyət daşıyır.
VI.5. Filial və nümayəndəliklər Birliyin İdarə Heyəti tərəfindən verilən səlahiyyət daxilində fəaliyyət göstərirlər.

## VII. Birliyin mülkiyyəti və əmlakının formalaşma mənbələri

VII.1. Birliyin mülkiyyətini binalar, qurğular, avadanlıq, inventar, pul vəsaiti, qiymətli kağızlar və bu Nizamnamədə nəzərdə tutulmuş fəaliyyətin maddi təminatı üçün lazım olan başqa əmlak təşkil edir.
VII.2. Birliyin pul və digər şəkildə formalaşdırılma mənbələri aşağıdakılardır:
VII.2.1. Könüllü əmlak haqları və ianələr;

VII.2.2. Malların satışından, xidmətlər göstərilməsindən, işlər görülməsindən daxilolmalar;
VII.2.3. Öz əmlakından istifadə və onun satılması nəticəsində əldə edilən gəlirlər;
VII.2.4. Qrantlar;
VII.2.5. Qanunvericiliklə qadağan olunmayan başqa gəlirlər.
VII.3. Birlik əldə edilmiş gəliri təsisçiləri (üzvləri) arasında bölməyərək yalnız öz məqsədlərinə nail olunmasına yönəldilmiş sahibkarlıq fəaliyyətini həyata keçirə bilər.
VII.4. Birliyin mülkiyyəti üzərində hüquqlar bu Nizamnamə ilə müəyyən edilmiş qaydada həyata keçirilir.
VII. 5. Birliyin maliyyə fəaliyyəti Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq təşkil edilir.

## VIII. Birliyin fəaliyyətinə xitam verilməsi

VIII.1. Birliyin fəaliyyətinə onun yenidən təşkil edilməsi (birləşdirmə, qoşulma, bölünmə, ayrılma, çerilmə) və ya onun ləğv edilməsi yolları ilə xitam verilir.
VIII.2. Birliyin başqa təşkilatın ona birləşmə və qovuşma formalarında yenidən təşkil edilməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən onlardan birinin fəaliyyətinə xitam verilməsi haqqında qeydin hüquqi şəxslərin dövlət reyestrinə daxil edildiyi andan hesab edilir.
VIII.3. Birliyin ayrılma və bölünmə formalarından təşkil edilməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən onlardan birinin ayrılması haqqında aə ya bölünən təşkilatın fəaliyyətinə xitam verilməsi haqqında və yeni qeyri-hökumət təşkilatlarının təsis edilməsi haqqında qeydlərin hüquqi şəxslərin dövlət reyestrinə daxil edildiyi andan sayılır.
VIII.4. Birliyin çevrilmə formasında təşkil edilməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən mövcud olan təşkilatın ləğvi və onun əsasında yeni təşkilatın təsis edilməsi haqqında qeydlərin hüquqi şəxslərin dövlət reyestrinə daxil edildiyi andan sayılır.
VIII.5. Birliyin yenidən təşkilindən sonra hüquq varisliyi ilə bağlı məsələlər Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada həll olunur.
VIII.6. Birliyn ləğv edilməsi ilə bağlı bütün əmlak məsələləri Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada həll olunur.